https://doi.org/10.59849/3006-1342.2026.1.45
UOT 94(479)

*Zəhra Rüstəm qızı İslamova*
*Bakı Dövlət Universiteti,*
*Azərbaycan tarixi (təbiət fakültələri üzrə)*
*kafedrasının müəllimi, t.ü.f.d.*
*E-mail: zahraislamova@bsu.edu.az*
*Orcid ID: 0000-0002-9530-4263*

# ƏFŞARLAR DÖVRÜNDƏ XRİSTİAN VƏQFLƏRİNİN HÜQUQİ VƏ SOSİAL-İQTİSADİ MAHİYYƏTİ

*Orta əsrlər dövründə xristian monastırlarında vəqf torpaq mülkiyyətinin formalaşması və Əfşarlar dövründə bu mülkiyyətin hüquqi statusunun araşdırılması mühüm əhəmiyyət kəs edir. Mənbələr göstərir ki, xristian dini təsisatlarının torpaq mülkiyyəti şəriət hüququnun tələblərinə uyğun olaraq əvvəlcə fərdi mülkiyyət formasında rəsmiləşdirilmiş, daha sonra dini məqsədlərlə vəqf edilmişdir. Bu mexanizm kilsə və monastır mülkiyyətinin toxunulmazlığını təmin edən əsas hüquqi baza olmuşdur.*

*Nadir şahın dini siyasəti praqmatik və nisbətən tolerant xarakter daşımış, xristian icmaların dini strukturları və ibadətgahları qorunmuşdur. Lakin dövlətin maliyyə ehtiyacları səbəbindən xristian vəqfləri vergi sisteminə cəlb edilmiş, bəzi hallarda kilsə mülkləri müsadirə edilmişdir. Bu müdaxilələr sistemli dini təzyiq xarakteri daşımamış, əsasən fiskal və inzibati məqsədlərlə həyata keçirilmişdir. Nəticədə xristian vəqfləri klassik islam vəqfi statusunu daşımamaqla yanaşı, "dini mülk" kimi hüquqi dövriyyədə saxlanılmış və dövlət nəzarətinə tabe edilmişdir.*

*Tədqiqat tarixi-analitik və müqayisəli-hüquqi metodlara əsaslanır. Xristian monastırlarında vəqf torpaq mülkiyyətinin formalaşması şəriət hüququ prinsipləri kontekstində mühüm əhəmiyyət kəsb edən tarixi əsərlər əsasında təhlil edilmiş, həmçinin erməni epiqrafik materialları və ilkin mənbələri müqayisəli şəkildə araşdırılmışdır. Əfşarlar dövründə dövlətin xristian vəqflərinə münasibəti fiskal və inzibati siyasət çərçivəsində qiymətləndirilmiş, sosial-iqtisadi nəticələr struktur-funksional yanaşma ilə izah olunmuşdur.*

*Açar sözlər:* Əfşarlar dövləti, Nadir şah, xristian vəqfləri, kilsə mülkləri, dini siyasət, Azərbaycan

## *Giriş*

Orta əsrlər Yaxın Şərq və Cənubi Qafqaz tarixində vəqf institutu dini, sosial və iqtisadi münasibətlərin formalaşmasında mühüm rol oynamışdır. Ənənəvi olaraq bu institut İslam hüququ ilə əlaqələndirilsə də, tarixi mənbələr göstərir ki, vəqfə bənzər mülkiyyət mexanizmləri xristian dini təsisatlarının, xüsusilə monastır və kilsələrin iqtisadi strategiyasında da geniş şəkildə tətbiq edilmişdir. IV–XV əsrlərdə Ermənistan və Azərbaycan ərazilərində fəaliyyət göstərən xristian monastırları torpaq mülkiyyətinin formalaşdırılmasında şəriət hüququnun icazə verdiyi mexanizmlərdən istifadə etmiş, torpaqlar əvvəlcə fərdi mülkiyyətə keçirilmiş, daha sonra dini məqsədlərlə "əbədi və toxunulmaz" statusda vəqf edilmişdir.

Əfşarlar dövründə, xüsusilə Nadir şahın hakimiyyəti illərində, xristian dini mülkiyyətinin hüquqi statusu və dövlətlə münasibətləri yeni mərhələyə qədəm qoymuşdur. Bu dövrdə xristian icmaların və kilsə təsisatlarının mövcudluğu qorunmuş, lakin onların iqtisadi fəaliyyəti dövlətin fiskal və inzibati maraqları çərçivəsində nəzarət altına alınmışdır.

Məqalədə xristian monastırlarında vəqf torpaq mülkiyyətinin formalaşma mexanizmləri, hüquqi əsasları, Əfşar dövlətinin dini siyasəti və bu siyasətin sosial-iqtisadi nəticələri kompleks şəkildə təhlil edilir.

### *1. Xristian monastırlarında vəqf torpaq mülkiyyətinin formalaşması və hüquqi əsasları*

Orta əsrlər dövründə, xüsusilə IV–XV əsrlərdə Ermənistan ərazisində xristian monastırları və kilsə qurumları geniş torpaq mülkiyyətinə malik olmuşdur. Bu torpaq mülkiyyəti əsasən **vəqf** hüquqi institutu vasitəsilə formalaşdırılmışdır. Məlumdur ki, vəqf yalnız **şəriət baxımından qanuni mülk (mülk-i zarxarid)** hesab edilən, yəni pul qarşılığında alınmış torpaq və daşınmaz əmlak üzərində təsis edilə bilərdi.

Mənbələr göstərir ki, nə müsəlman hökmdarları (əmir, xan, şah), nə də xristian dini rəhbərləri **divan torpaqlarını** birbaşa dini təsisatlara bağışlaya bilməzdilər. Buna görə də torpaq əvvəlcə formal və ya real **satınalma aktı** ilə şəxsi mülkiyyətə keçirilir, yalnız bundan sonra monastır və ya kilsə adına vəqf edilirdi. XV əsrdə Üçmüədzin (Eçmiədzin) monastırına bağışlanan kəndlərin rəsmi sənədlərdə "satış" əməliyyatı kimi rəsmiləşdirilməsi, qeyri-müsəlman dini mülklərinə vəqf statusunun verilməməsi məqsədi daşıyan hüquqi mexanizmin bariz nümunəsi kimi çıxış edir. Bu formal hüquqi yanaşma vasitəsilə bağışlama faktiki olaraq tanınsa da, mülkiyyət vəqf hüququnun təmin etdiyi toxunulmazlıqdan və vergi güzəştlərindən kənarda saxlanılmış, nəticədə monastır təsərrüfatları dövlətin fiskal nəzarətinə açıq vəziyyətdə qalmışdır [6, s. 125-129].

X–XIV əsrlərə aid erməni epiqrafik yazıları da sübut edir ki, monastırlara vəqf edilən torpaqlar, bağlar, dəyirmanlar və digər əmlaklar **əvvəlcə fərdi şəxslər tərəfindən satın alınmış**, daha sonra isə "əbədi və toxunulmaz" statusla dini müəssisəyə verilmişdir. Vəqfnamələrdə bu əmlakın **satılması, girov qoyulması, dəyişdirilməsi və ya uzunmüddətli icarəyə verilməsi qəti qadağan olunurdu**.

Xristian monastır vəqflərinin hüquqi müdafiəsi yalnız dini deyil, eyni zamanda şəriət normaları ilə də möhkəmləndirilirdi. Vəqf sənədlərinin sonunda adətən **lənətnamə** yer alırdı ki, bu da vəqfin şərtlərini pozan şəxslərə qarşı ilahi cəzanı nəzərdə tuturdu. Bu praktika vəqf mülkiyyətinin toxunulmazlığını təmin edən əsas mexanizmlərdən biri olmuşdur [12, s. 114-116].

Nəticə etibarilə, xristian monastırlarında vəqf torpaq mülkiyyəti:

- hüquqi baxımdan şəriət normalarına uyğun şəkildə rəsmiləşdirilmiş,
- iqtisadi baxımdan monastırların davamlı gəlir mənbəyini təmin etmiş,
- siyasi baxımdan isə qeyri-sabit dövrlərdə kilsə mülkiyyətinin qorunmasına xidmət etmişdir.

Bu faktlar göstərir ki, vəqf institutu yalnız islam dünyasına məxsus olmayıb, **xristian dini təsisatlarının mülkiyyət strategiyasında mühüm rol oynamışdır**.

### *2. Nadir şahın xristianlara və xristian mülklərinə münasibəti*

"Nadir şah dini məsələlərdə məzhəb qarşıdurmalarını zəiflətməyə çalışır, müxtəlif konfessiyalara aid ibadətgahların qorunmasını dövlət sabitliyinin mühüm şərti hesab edirdi." [11, s. 74]. Bu yanaşma xristian icmalarının – xüsusilə erməni-qriqorian kilsələrinin və onlara bağlı mülklərin birbaşa ləğv edilməməsinin hüquqi əsasını təşkil etmişdir. Buradan aydın olur ki, xristian vəqfləri dini dözümlülükdən deyil, mərkəzləşmiş dövlət maraqlarından irəli gələn siyasətlə qorunmuşdur. Bununla da Nadir şah Əfşar dini məsələlərdə praqmatik və nisbətən tolerant mövqe tutmuş hökmdarlardan biri kimi çıxış etmişdir. Mənbələr göstərir ki, o, islam

müqəddəsləri ilə yanaşı, **xristian ibadətgahlarının abadlaşdırılmasına** da xüsusi diqqət yetirmiş, müxtəlif dinlərin müqəddəs məkanlarına qarşı hörmət nümayiş etdirmişdir [3, s. 193]. Bu yanaşma onun dini siyasətində zorakı assimilyasiyadan daha çox **siyasi sabitlik və konfessional balans** prinsipinə üstünlük verdiyini göstərir. "Nadir şahın göstərişləri ilə müsəlman və qeyri-müsəlman ibadətgahlarının dağıdılmasına yol verilmirdi." [11, s. 76]. Onu da qeyd etmək laımdır ki, bu siyasət xristian vəqflərinin fiziki davamlılığını təmin etmiş, dini qarşıdurmaların qarşısını almış, imperiya daxilində multikonfessional legitimlik yaratmışdır.

Nadir şahın təşəbbüsü ilə yaradılmış **müqəddəs kitabların tərcümə qrupu** xristian–müsəlman dialoqunun institusional formalarından biri olmuşdur. Tərcümə prosesində pravoslav və katolik din xadimlərinin təfsirləri diqqətlə nəzərə alınmış, müsəlman üləmaları ilə aparılan müzakirələr nəticəsində mətnlər **qarşılıqlı razılaşma əsasında** hazırlanmışdır [7, s. 335-336]. Bu fakt Nadir şahın xristian ilahiyyat ənənələrinə hörmətlə yanaşdığını və onları nəzərə aldığını sübut edir. Tərcümə işləri başa çatdıqdan sonra xristian və müsəlman alimlərindən ibarət qrupun Nadir şah tərəfindən ehtiramla qəbul edilməsi və onların yol xərclərinin dövlət xəzinəsi hesabına ödənilməsi hökmdarın **qeyri-müsəlman din xadimlərinə qarşı himayədar münasibətini** açıq şəkildə əks etdirir [9, s. 605-608].

Nadir şahın hakimiyyətə gəlməsi ilə bölgənin siyasi-iqtisadi vəziyyəti daha da mürəkkəbləşmiş, mərkəzləşmiş hakimiyyətin möhkəmləndirilməsi istiqamətində aparılan sərt tədbirlər, fasiləsiz hərbi yürüşlər və genişmiqyaslı vergi siyasəti regional təsərrüfat sistemində ciddi gərginliklər yaratmışdır. Xüsusilə uzunmüddətli müharibələr və resursların hərbi məqsədlərə yönəldilməsi nəticəsində kənd təsərrüfatı və ticarət əlaqələri zəifləmiş, əhalinin sosial rifah səviyyəsində geriləmə müşahidə olunmuşdur [1, s. 487-490; 2, s. 105-108]. Nadir şahın dini ayinlər barədə söylədiyi fikirlər onun **dini-fəlsəfi baxışlarının** göstəricisidir. O, ayinlərin çoxluğunu problem kimi görsə də, bu baxışı **zor tətbiq etməklə qeyri-müsəlmanlara qəbul etdirməyə çalışmamışdır**. Əksinə, onun praktik siyasəti xristian icmalarına qarşı dözümlü münasibət, onların dini fəaliyyətinə mane olmamaq və müqəddəs məkanların qorunması ilə səciyyələnmişdir [1, s. 495-496; 4, s. 403-409]. Nəticə etibarilə, Nadir şahın xristianlara münasibəti dini tolerantlıq və praqmatik dövlətçilik prinsiplərinə əsaslanmış, xristian dini irsinin qorunmasına şərait yaratmış, islam–xristian dialoqunun inkişafına imkan vermişdir. Bu yanaşma Nadir şahın konfessional müxtəlifliyi siyasi sabitliyin mühüm elementi kimi dəyərləndirdiyini göstərir.

### *3. Xristianların hüquqi statusu*

Əfşarlar dövründə xristian icmalar İslam hüququnda zimmi statusu çərçivəsində tanınırdı. Bu status onlara dini ayinlərin icrası, kilsə və monastırların saxlanılması və müəyyən mülkiyyət hüquqları verirdi. Lakin bu hüquqlar mütləq xarakter daşımır, dövlətin fiskal və inzibati maraqları ilə məhdudlaşdırılırdı.

Kilsə mülkləri əsasən torpaq sahələri, bağlar, dəyirmanlar və karvansaralardan ibarət idi. Bu mülklərin gəlirləri dini fəaliyyətlə yanaşı, icma daxilində sosial funksiyaların icrasına xidmət edirdi. Dövlət isə bu mülkləri hüquqi baxımdan tanımaqla yanaşı, onların iqtisadi dövriyyəsini nəzarətdə saxlayırdı. "Əfşar idarəçiliyi dövründə xristian kilsələrinə məxsus torpaqların bir hissəsi əvvəlki statusunu saxlamış, lakin onların gəlirləri dövlət nəzarəti altına alınmışdır." [10, s. 32-33; 11, s. 81]. Bu məlumatı erməni mənbələri də təsdiq edir: "bəzi hallarda kilsə mülkləri müsadirə edilirdi" [13, s. 142-145]. Bu müsadirənin sistemli deyil, bəzən olduğunu, adətən siyasi itaətsizlik və ya maliyyə problemləri ilə bağlı həyata keçirilirdi. Dövlətin müsadirələrdə məqsədi dini təzyiq yox, idarəetmə və maliyyə nəzarəti idi. Bu məlumatlar göstərir ki, xristian vəqfləri klassik islam vəqfi statusunda tanınmasa da, "dini mülk" kimi hüquqi dövriyyədə saxlanılmış, gəlirlər birbaşa icma nəzarətindən çıxarılaraq

fiskal sistemə bağlanmışdır. Yəni xristian vəqfləri ləğv edilməmiş, dolayı olsa da, dövlət nəzarətinə keçmişdir.

### *4. Nadir şahın islahatları və xristian dini əmlakları*

Nadir şahın maliyyə islahatları çərçivəsində dini mülklərin gəlirləri dövlət üçün potensial resurs kimi qiymətləndirilmişdir. Bu siyasət müsəlman vəqfləri ilə yanaşı, xristian kilsə mülklərinə də şamil edilmişdir. Bəzi kilsə torpaqları dövlət xəzinəsinə keçirilmiş, bəziləri isə vergi öhdəliyinə cəlb olunmuşdur. Lakin bu müdaxilələr xristian dini institutlarının tam ləğvini nəzərdə tutmamışdır. Nadir şah xristian icmaların dini strukturlarını siyasi sabitliyin qorunması baxımından faydalı hesab etmiş və onların institusional mövcudluğunu qorumuşdur. "Erməni kilsələri yalnız dini mərkəz deyil, eyni zamanda kənd təsərrüfatı, ticarət və sənətkarlıq münasibətlərinin təşkili baxımından mühüm iqtisadi vahidlər idi." [11, s. 83]. Gördüyümüz kimi, xristian vəqflərinin istehsal yönümlü iqtisadi struktura malik olduğunu, kəndli əhalinin müəyyən qisminin kilsə torpaqlarında çalışdığını, dövlət üçün vergi bazası rolunu oynadığını sübut edir. Lakin, Əfşar dövləti bu vəqfləri saxlamaqla bölgədə iqtisadi sabitliyi qorumuş olsa da, Nadir şah kilsə torpaqlarını vergi sisteminə daxil etmişdir. "Erməni kilsəsi əhəmiyyətli torpaq və iqtisadi resurslara nəzarət edən əsas iqtisadi qurum idi... buna görə də, kilsə torpaqları dünyəvi əmlaklarda olduğu kimi vergilərə cəlb edilmişdir" [13, s. 138-143]. Bununla da, islam hüququnda formalaşmış klassik vəqf prinsipləri xristian dini mülklərinə tətbiq edilməmiş, nəticədə xristian icmalarına məxsus vəqf təsərrüfatları əvvəlki hüquqi-status üstünlüklərindən məhrum edilmişdir. Xüsusilə vergi toxunulmazlığının (immunitetinin) ləğvi bu mülklərin dövlət fiskal sisteminə daxil edilməsinə gətirib çıxarmış, bu isə xristian vəqflərinin iqtisadi müstəqilliyini zəiflətmiş, onların sosial və dini funksiyalarının icrasında ciddi məhdudiyyətlər yaratmışdır [5, s. 117-119; 8, s. 140]. Əfşarlar dövründə dövlət üçün əsas məqsəd gəlir bazasının genişləndirilməsi olmuşdur. Kilsə mülkiyyəti faktiki olaraq vəqf xarakterli iqtisadi institut olsa da, kəndli əhalinin bir hissəsi kilsə torpaqlarında işləyir və dövlət bu strukturu dağıtmaq əvəzinə istismar etməyi üstün tutmuşdur. Kilsələrin vergi siyasətinə cəl edilməsi xristian vəqflərinin sosial yardım funksiyasını zəiflətmiş, kəndli əhalinin iqtisadi yükünü artırmış və kilsənin xristian əhali arasındakı rolunu məhdudlaşdırmışdır.

### *Nəticə*

Aparılan təhlil göstərir ki, xristian monastırlarında vəqf torpaq mülkiyyəti Orta əsrlər dövründə yalnız dini deyil, eyni zamanda hüquqi, iqtisadi və siyasi funksiyalar daşıyan institut olmuşdur. Bu mülkiyyət forması monastırların maddi dayanıqlığını təmin etmiş, qeyri-sabit siyasi şəraitdə kilsə təsisatlarının mövcudluğunu qorumağa imkan vermişdir. Əfşarlar dövründə, xüsusilə Nadir şahın hakimiyyəti illərində, xristian vəqfləri ləğv edilməmiş, lakin dövlətin mərkəzləşmə və fiskal siyasəti çərçivəsində nəzarət altına alınmışdır.

Xristian kilsə mülklərinin vergi sisteminə daxil edilməsi onların sosial və xeyriyyə funksiyalarını zəiflətmiş, icmaların iqtisadi yükünü artırmışdır. Bununla belə, xristian dini institutlarının tamamilə aradan qaldırılmaması və ibadətgahların qorunması Əfşar dövlətinin dini siyasətinin zorakı assimilyasiyadan daha çox siyasi sabitlik və konfessional balans prinsipinə əsaslandığını göstərir. Bu faktlar sübut edir ki, vəqf institutu yalnız islam dünyasına məxsus olmayıb, xristian dini təsisatlarının mülkiyyət strategiyasında da mühüm yer tutmuş və Əfşarlar dövründə dövlət–dini münasibətlərinin formalaşmasında əhəmiyyətli rol oynamışdır.

Tədqiqat nəticəsində bir sıra yeniliklər əldə edilmişdir. İlk olaraq, xristian monastırlarında vəqf torpaq mülkiyyətinin şəriət hüququna uyğun mexanizmlərlə

formalaşdığı göstərilmiş, xristian vəqflərinin klassik islam vəqfindən fərqli, lakin funksional baxımdan analoji institut olduğu əsaslandırılmış, Əfşarlar dövründə xristian vəqflərinin ləğv edilmədiyi, dövlət nəzarəti altına alındığı sübut edilmiş, Nadir şahın xristian vəqflərinə münasibətinin praqmatik dövlətçilik xarakteri daşıdığı müəyyən edilmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi (ən qədim zamanlardan 1870-ci ilədək). S.Əliyarlının redaktəsi ilə. Bakı: Çıraq, 2009, 872 s.
2. Bakıxanov A. Gülüstani–İrəm. Bakı: Möminin nəşriyyatı, 2001, 302 s.
3. Bünyadov Z. Dinlər, təriqətlər, məzhəblər. Bakı, "Şərq-Qərb", 2007, 336 s.
4. Floor, W. A Fiscal History of Iran in the Safavid and Afshar Periods. New York, 2008, 594 p.
5. Hüseynov E. Azərbaycan Nadir şahın hakimiyyəti dövründə. Bakı: Elm, 2013, 224 s.
6. Quddusi M. H. Nadir Şah (Nadir şah Əfşarın həyatı). Bakı: Gənclik, 1999, 240 s.
7. Lokkart L. Nadir şah, ilkin mənbələr əsasında tənqidi tədqiqat. Bakı: Qanun, 2013, 552 s.
8. Matthee, R. Persia in Crisis: Safavid Decline and the Fall of Isfahan. London, 2012.
9. Süleymanov M. Nadir şah. Tehran, Neqare endişe, 2010, 740 s.
10. Tahirzadə Ə. Nadir şah Əfşar. (Tərcümeyi-hal oçerki). Üçüncü nəşr. Bakı. "Çıraq" nəşriyyatı, 2005. 40 s.
11. Наджафли Г. Азербайджан в XVIII– XIX веках. Монография. Бишкек, 2010. 260 с.
12. Папазян А.Д. Аграрные отношения в Восточной Армении в XVI–XVII веках. Ереван, Изд. АН АрмССР, 1972. 302 с.
13. Тер-Мкртичян Л.Х. Армянские источники о Средней Азии. VIII-XVIII вв. Москва, Издательство "Наука" Главная редакция восточной литературы, 1985. 189 с.

УДК 94(479.24)

*Захра Рустам кызы Исламова*
*Бакинский Государственный Университет*

## ПРАВОВАЯ И СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКАЯ СУЩНОСТЬ ХРИСТИАНСКИХ ВАКУФОВ В ЭПОХУ АФШАРОВ

*РЕЗЮМЕ*

*Ключевые слова:* государство Афшаров, Надир-шах, христианские вакуфы, церковная собственность, религиозная политика, Азербайджан

Исследование формирования вакуфного землевладения в христианских монастырях в средние века, а также правового статуса этой собственности в эпоху Афшаров, является актуальной научной проблемой. Источники свидетельствуют о том, что земельная собственность христианских религиозных институтов оформлялась в соответствии с нормами шариатского права: первоначально земля закреплялась в форме частной собственности, после чего передавалась на вакуфные цели. Данный механизм служил правовой гарантией неприкосновенности имущества церквей и монастырей.

Религиозная политика Надиршаха носила прагматичный и сравнительно терпимый характер, что обеспечивало сохранность религиозных структур и культовых сооружений христианских общин. Вместе с тем, в условиях финансовых потребностей государства христианские вакуфы были включены в налоговую систему, а в отдельных случаях церковные владения подвергались конфискации. Эти меры не являлись формой

систематического религиозного давления и были обусловлены главным образом фискальными и административными соображениями. В результате христианские вакуфы, не обладая статусом классического исламского вакуфа, сохранялись в системе правовых отношений в качестве «религиозной собственности» и находились под государственным контролем.

Исследование основано на историко-аналитическом и сравнительно-правовом методах. Формирование вакуфного землевладения в христианских монастырях анализируется в контексте принципов шариатского права на основе основных исторических источников, а также посредством сопоставительного изучения армянских эпиграфических материалов и первоисточников. Отношение государства к христианским вакуфам в период Афшаров оценивается в рамках фискальной и административной политики, а социально-экономические последствия анализируются с применением структурно-функционального подхода

UDC 94(479.24)

*Zahra Rustam Islamova*
*Baku State University*

THE LEGAL AND SOCIO-ECONOMIC NATURE OF CHRISTIAN WAQFS DURING THE AFSHAR PERIOD

*SUMMARY*

*Keywords:* Afshar state, Nadir Shah, Christian waqfs, church property, religious policy, Azerbaijan

The study of the formation of waqf land ownership in Christian monasteries during the medieval period and the legal status of this property in the Afshar era represents a significant area of scholarly interest. Sources indicate that the land ownership of Christian religious institutions was formalized in accordance with Islamic (sharia) legal principles: land was first registered as private property and only thereafter endowed for religious purposes. This mechanism served as the legal guarantee for the inviolability of church and monastic property.

The religious policy of Nadir Shah was pragmatic and comparatively tolerant, which contributed to the preservation of the religious structures and places of worship of Christian communities. However, due to the financial needs of the state, Christian waqfs were incorporated into the tax system, and in certain cases church properties were confiscated. These interventions were not intended as systematic religious persecution but were primarily motivated by fiscal and administrative considerations. Consequently, although Christian waqfs did not possess the status of classical Islamic waqfs, they remained legally recognized as ‘religious property’ under state control.

The research is based on historical-analytical and comparative-legal methods. The formation of waqf land ownership in Christian monasteries is examined within the framework of sharia legal principles on the basis of significant historical works, alongside a comparative analysis of Armenian epigraphic materials and primary sources. The state’s approach to Christian waqfs during the Afshar period is evaluated within the context of fiscal and administrative policy, while the socio-economic consequences are explained through a structural-functional approach.

***Daxil oldu: 17.02.2026-cı il***